*Bizim ən böyük vəzifəmiz Azərbaycanda dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, inkişaf etdirmək və onu əbədi etməkdən ibarətdir. Hər bir vətəndaş bunu qiymətləndirərək Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün öz töhfəsini verməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 28 may 2016-cı il № 40 (2055) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Müstəqilliyi qorumaq onu əldə etməkdən daha da çətindir

## 28 May - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib



***Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib.***

Bütün Azərbaycan xalqını Respublika Günü münasibətilə təbrik edən dövlət başçısı öz çıxışında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını xalqımız və dünya üçün tarixi hadisə kimi dəyərləndirdi. İlk dəfə müsəlman aləmində demokratik respublikanı, Prezidentin sözlərinə görə, Azərbaycan xalqı, onun qabaqcıl nümayəndələri yaratmışlar: Azərbaycan xalqı və dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə həmişə çox böyük hörmətlə yanaşıb və yanaşır, onların xatirəsini qəlbində yaşadır. Əfsuslar ki, Azərbaycan Demokratik Respublikasının ömrü uzun olmadı. Respublika iki ildən sonra süqut etdi. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qorumaq onu əldə etməkdən daha da çətindir.

Tariximizin sovet dövrünə toxunan dövlət başçısı bildirdi ki, əlbəttə, biz müstəqil deyildik, özümüz müstəqil siyasət apara bilmirdik. Ancaq bununla bərabər, o dövrdə də müsbət məqamlar az deyildi. İlk növbədə, təhsillə bağlı məsələlər öz həllini tapdı və bu gün Azərbaycanda savadlılığın səviyyəsi təxminən 100 faizdir. Elmin, mədəniyyətin, incəsənətin, kənd təsərrüfatının, sənayenin inkişafı sovet dövründə təmin olunmuşdur. Xüsusilə, o dövrdə ki, ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik edirdi. Əgər Sovet Azərbaycanının sosial-iqtisadi statistikasına nəzər salsaq, bunu görmək mümkündür ki, 1970-ci illərə qədər Azərbaycan ən geridə qalmış yerlərdə idi. Ancaq Heydər Əliyev hakimiyyətə gələndən sonra Azərbaycan inkişaf etməyə başladı və qısa müddət ərzində donor respublikaya çevrildi.

Bu, böyük nailiyyət idi. Çünki Azərbaycan o illərdə inkişaf etmiş, sənaye müəssisələri yaradılmış, kənd təsərrüfatı sürətlə inkişaf etmiş, xalqımız daha da yaxşı yaşamağa başlamışdır. Hesab edirəm ki, məhz buna görə, məhz o illərdə görülən işlərə və Heydər Əliyevə xalq tərəfindən olan hörmətə görə ən çətin anlarda xalqımız yenə də ulu öndərə üz tutdu, 1993-cü ildə onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini göstərdi. Əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsə idi, müstəqilliyimizin taleyi çox faciəli ola bilərdi.

1991-ci ildə bərpa edilən müstəqilliyi böyük tarixi şans, böyük sərvət hesab edən Prezident təəssüflə bildirdi ki, o illərdə ölkəmizə rəhbərlik edən şəxslər bu şansdan istifadə edə bilmədilər. Ölkəmizi xaos bürümüşdü. Daxili çəkişmələr, anarxiya, silahlı quldur dəstələri meydan oxuyurdu. Özbaşınalıq, iqtisadi tənəzzül, hərbi böhran və bütün bu xoşagəlməz hallar nəticədə vətəndaş müharibəsinə gətirib çıxarmışdı. Bu dəhşətli vətəndaş müharibəsində qardaş qanı axıdıldı. Belə bir vəziyyətdən istifadə edən erməni millətçiləri, Ermənistan işğalçıları torpaqlarımızı işğal etdilər. 1992-ci ildə Şuşa və Laçın, 1993-cü ilin aprelində Kəlbəcər işğal altına düşdü və beləliklə, Dağlıq Qarabağ ilə Ermənistan arasında coğrafi əlaqə yarandı.

Həmin ağır və faciəli şəraitdə xalq Heydər Əliyevə müraciət etdi. O, bu müraciətə öz dəstəyini verdi, hakimiyyətə gəldi və ondan sonra Azərbaycan inkişaf etməyə başladı. Təxminən üç il vaxt lazım idi ki, iqtisadi sabitləşmə təmin edilsin. Biz bunu statistikadan görürük ki, məhz 1996-cı ildə iqtisadi sabitləşmə əldə edilmiş, ondan sonra isə Azərbaycan iqtisadiyyatı inkişaf etməyə başlamışdır. Siyasi sistem yaradıldı, 1995-ci ildə Konstitusiya qəbul olundu, Azərbaycan xarici investorları ölkəmizə dəvət etdi və inkişaf dövrü başladı. 1993-2003-cü illər inkişaf, sabitlik illəri oldu. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu, milli ideologiya - azərbaycançılıq ideologiyası xalq tərəfindən dəstəkləndi. Bu gün biz o illərdə həyata keçirilən işlərin bəhrəsini görürük, əlbəttə ki, Azərbaycanı bu möhkəm təməl üzərində uğurla, inamla irəliyə aparırıq.

2003-cü ildən bu günə qədər Azərbaycan Heydər Əliyev yolu ilə gedir, bu siyasətə sadiqdir. Əlbəttə dünya dəyişir, bölgə dəyişir. Biz indi tam fərqli geosiyasi vəziyyətdə yaşayırıq. Ancaq biz həm xarici, həm daxili siyasətlə bağlı prinsipial seçimimizə sadiqik. Azərbaycanda xalq vahid amal uğrunda çalışır, vahid amal ətrafında birləşib ki, ölkəmizi daha da gücləndirək, xalqımızın rifah halını yüksəldək, Azərbaycanın dünyadakı nüfuzu daha da artsın və biz dayanıqlı, uzunmüddətli inkişaf strategiyamızı icra edə bilək. Buna nail olmaq üçün əlbəttə ki, qarşımızda önəmli vəzifələr durur. Son illər ərzində qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapır.

2003-cü ildən bu günə qədər görülən işlər haqqında çox danışmaq istəməzdim. Hər şey göz qabağındadır. Azərbaycanın beynəlxalq nüfuzu artıb, biz 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv olmuşuq, milli iqtisadiyyat üç dəfədən çox artıb, maaşlar, pensiyalar dəfələrlə artırılıb. Azərbaycan çox böyük əhəmiyyət kəsb edən transmilli, enerji və nəqliyyat layihələrini uğurla icra edib. Azərbaycan qaz, elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir. Biz enerji, xüsusilə neft-qaz layihələrinin icrasında liderlik keyfiyyətlərimizi bütün dünyaya nümayiş etdiririk. Biz indi regional nəqliyyat mərkəzinə çevrilirik. Azərbaycanda bütün dinlərin, bütün millətlərin nümayəndələri bir ailə kimi rahat yaşayır.

Azərbaycanda bundan sonra da təhlükəsizliyin və sabitliyin təmin edilməsinin zəruriliyini vurğulayan ölkə rəhbəri dedi: Bu iki amil olmasa, heç bir ölkə inkişaf edə bilməz. Azərbaycanda təhlükəsizlik lazımi səviyyədə təmin edilir. Azərbaycan xalqı təhlükəsizlik şəraitində yaşayır. Xüsusilə, indiki şəraitdə, - dünyada gedən prosesləri biz görürük, - bu, yüksək qiymətə layiq olmalıdır. Sabitliyə gəldikdə isə, bunun təminatçısı Azərbaycan xalqıdır. Azərbaycan xalqı dövlət siyasətini dəstəkləyir, xalq-iqtidar birliyi möhkəmlənir və əlbəttə, Azərbaycan xalqı ölkəmizin seçiminə sadiqdir.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

***Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.***

***Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.***

***Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.***

***Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.***



1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması xalqımızın həyatına böyük və tarixi hadisə kimi daxil olub. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarıb, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirib.

98 il əvvəl mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən - "Əqdnamə"dən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik amalını daha da gücləndirib.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarıb. Ümummilli lider Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görüb, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar edib. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində sürətli inkişafını uğurla davam etdirir.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonlarında yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoyub. Xalqımız bu şərəfli tarixi - 28 Mayı Respublika Günü kimi qeyd edir.

**AZƏRTAC**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Müstəqilliyi qorumaq onu əldə etməkdən daha da çətindir

## 28 May - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib

**(Əvvəli 1-ci səhifədə)**

Demokratiyanın inkişafı istiqamətində də böyük uğurlara nail olduğumuzu söyləyən İlham Əliyev Azərbaycanda bütün demokratik təsisatların uğurla fəaliyyət göstərdiyini, bütün azadlıqların - söz azadlığı, mətbuat azadlığı, sərbəst toplaşma azadlığı, siyasi fəaliyyət azadlığının təmin edildiyini, heç bir məhdudiyyətin olmadığını bildirdi. Bu da qarşıya bir vəzifə kimi qoyulur ki, biz gələcəkdə də demokratik inkişafa sadiq olmalıyıq.

Əgər təhlükəsizlik və sabitlik olmasa, əlbəttə ki, demokratiyadan, iqtisadi və sosial inkişafdan söhbət belə gedə bilməz və biz bunu yaxın tarixdən görürük. Ancaq indi bunu bütün dünya görür. Həm MDB məkanında, Avropada, Yaxın Şərqdə, həm də bizim qonşuluğumuzda çox təhlükəli proseslər gedir. Demokratik normalar pozulur, ayrı-seçkilik meyilləri güclənir, milli-dini zəmində qarşıdurmalar, anlaşılmazlıq və müharibələr başlayır.

Ancaq mən bir daha demək istəyirəm ki, demokratiya bizim şüurlu seçimimizdir, yolumuzdur. Azərbaycan bu istiqamətdə böyük uğurlara imza atıb, ancaq biz etiraf etməliyik, hələ ki, görüləsi işlər çoxdur. Heç bir cəmiyyət kamil deyil. Biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik.

Azərbaycanda bu il "Multikulturalizm ili" elan edildiyini deyən Prezident bunu dünyaya bir mesaj kimi dəyərləndirdi: Azərbaycan cəmiyyəti əsrlər boyu multikulturalizm şəraitində yaşayır. Hələ bu ifadə yaranmadan biz milli barışıq, tolerantlıq, qarşılıqlı dəstək və hörmət şəraitində yaşayırdıq. Bu gün bizim nümunəmiz dünyada öyrənilir və dəstəklənir. Biz çalışacağıq və çalışmalıyıq, - bunu da qarşıya vəzifə kimi qoyuram, - həm Azərbaycan təcrübəsi dünyada daha da geniş şəkildə təbliğ edilsin, həm də biz bu təcrübəni digər ölkələrlə paylaşaq ki, dini, milli dözümlülük, tolerantlıq, multikulturalizm meyilləri güclənsin. Əks təqdirdə, bu, bizə də problemlər yarada bilər. Çünki biz adada yaşamırıq və istər-istəməz xarici təsir də mümkündür. Necə ki, biz təsir edirik, Azərbaycana da təbii olaraq, media və digər vasitələrlə təsir göstərilir. Ona görə biz əlbəttə, maraqlıyıq ki, bölgədə və dünyada multikulturalizm meyilləri güclənsin. Biz bu istiqamətdə fəaliyyətimizi davam etdirməliyik.

Xarici siyasətə gəldikdə, bizim siyasətimiz müstəqil siyasətdir, Azərbaycan xalqının maraqlarını təmin edir və uğurla təmin edir. Biz bütün ölkələrlə qarşılıqlı hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında münasibətlər qurmuşuq və Ermənistandan başqa bizim heç bir ölkə ilə heç bir problemimiz yoxdur. Qonşularla münasibətlərimiz bizim üçün prioritet təşkil edir. Hesab edirəm ki, hər bir ölkə üçün bu, belə olmalıdır. Çünki biz bu coğrafiyada, bu qonşuluqda yaşayırıq. Biz maraqlıyıq ki, qonşuluqda sabitlik olsun, inkişaf getsin, xoşagəlməz hallar, təhlükələr olmasın. Qonşularımızın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir. Əgər qonşunun evi yanırsa, təbii olaraq, ilk növbədə, sən gedib qonşuya yardım edirsən. Digər tərəfdən sən özünü qoruyursan. Siyasətdə də belədir. Ona görə bizim qonşularla münasibətlərimiz formalaşıb, oturuşub və çox gözəl münasibətlərdir. Türkiyə, Rusiya, İran və Gürcüstan ilə həm ikitərəfli, həm çoxtərəfli formatlarda çox gözəl siyasi-iqtisadi, mədəni əlaqələrimiz var. Bu əlaqələr bizim üçün çox önəmlidir. Qonşular da bizə eyni mövqedən yanaşır. Biz bu əlaqələri gələcəkdə prioritet kimi daim diqqət mərkəzində saxlamalıyıq. Biz bu əlaqələri gücləndirmək üçün nə lazımdırsa edəcəyik. Bununla bərabər, biz üçtərəfli formatda da işləyirik. Bu üçtərəfli formatın yaradılmasının təşəbbüskarı da biz olmuşuq. Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-İran-Rusiya. Bütün qonşularla ayrı-ayrılıqda üçtərəfli format artıq formalaşıb və bu, sadəcə olaraq formal xarakter daşımır. Çünki bu üçtərəfli əməkdaşlıq çərçivəsində bir çox önəmli məsələlər həll olunur, təhlükəsizliklə, iqtisadi əməkdaşlıqla, enerji və nəqliyyatla bağlı layihələr icra edilir. Yəni, bu əməkdaşlıq bizə də, qonşularımıza da böyük xeyir gətirir.

Müsəlman ölkələri ilə əməkdaşlığımız həmişə ən yüksək səviyyədə olmuşdur. Biz İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Beynəlxalq arenada, BMT-də bizi ən çox dəstəkləyən məhz müsəlman ölkələridir, biz də onları dəstəkləyirik. Bu yaxınlarda İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşündə qəbul edilmiş qətnamə Azərbaycanı birmənalı şəkildə dəstəklədi, Ermənistanın təcavüzünü, aprel təxribatını qətiyyətlə pislədi və bununla bərabər, İslam Əməkdaşlıq Təşkilatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupunu da yaratmışdır. Bu əməkdaşlıq bizim üçün böyük əhəmiyyət daşıyır. Bu əməkdaşlıq tarixə, mədəniyyətə, dinə, ortaq maraqlara əsaslanır və daim diqqət mərkəzində olmalıdır.

Avropa ölkələri ilə də bizim əməkdaşlığımız genişlənir. Həm ikitərəfli formatda çox gözəl əlaqələrimiz var, həm də Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişafı istiqamətində böyük işlər görülür, görülübdür. Hazırda münasibətlər yüksələn xətlə inkişaf edir. Bu, bizi sevindirir, əminəm ki, Avropa qurumlarını da sevindirir. Avropa İttifaqının üzvü olan 8 ölkə ilə bizim strateji tərəfdaşlığımız haqqında sənədlər imzalanıb və ya qəbul edilib. Bu, Avropa İttifaqına üzv ölkələrin üçdə bir hissəsidir. Bütövlükdə, Azərbaycan-Avropa İttifaqı əlaqələrinin formalaşdırılması istiqamətində təkliflər indi masa üzərindədir. Ümid edirəm ki, yaxın zamanlarda ciddi danışıqlar başlanacaqdır.

Əlbəttə, xarici siyasətimizin və nəinki xarici siyasətimizin, ümumiyyətlə, siyasətimizin əsas məsələsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Mən bu məsələ ilə bağlı dəfələrlə fikirlərimi bildirmişəm. Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və xalq da bu mövqeyi dəstəkləyir, bəyənir. Bu münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. Erməni silahlı qüvvələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir, status-kvo dəyişdirilməlidir. Mən şadam, Minsk Qrupuna həmsədrlik edən ölkələrin rəhbərləri, xarici işlər nazirləri, digər nümayəndələr artıq birmənalı şəkildə deyirlər ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Status-kvonun dəyişdirilməsi işğala son qoyulması deməkdir. Çünki status-kvo Ermənistanı qane edir, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu status-kvo əbədi qalsın. Onlar istəyirlər ki, bu danışıqlar sonsuz olsun. Yəni, görüntü, imitasiya naminə danışıqlar aparılsın. Biz dəfələrlə demişik ki, bu, mümkün deyil. Biz artıq 20 ildən çoxdur ki, gözləyirik. Vasitəçilər həmişə bizə gözləyin, sülh yolu ilə həll edin deyirlər. Son vaxtlar bunu daha da tez-tez təkrarlayırlar. Biz də istəyirik ki, sülh yolu ilə həll olunsun. Kim istəyər ki, müharibə başlasın?! Amma biz istəyirik ki, həll olunsun. Burada Ermənistan ilə Azərbaycan arasında fərq məhz bundadır. Ermənistan istəyir ki, sülh yolu ilə həll olunsun, amma bunun həllini əngəlləyir, ortaya süni əngəllər qoyur. Qabaqcadan qəbuledilməz şərtlər qoyur ki, biz bunu qəbul etməyək və beləliklə, danışıqlar onilliklər ərzində belə davam etsin. Bizim isə mövqeyimiz konstruktivdir və bunu vasitəçilər bilir. Rəsmi açıqlamasalar da, bunu etiraf edirlər. Konstruktiv mövqe nümayiş etdiririk ki, bu məsələ həll olunsun, torpaqlarımız işğaldan azad edilsin, Azərbaycan köçkünləri öz dədə-baba torpaqlarına qayıda bilsinlər. Bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bir daha demək istəyirəm, nə Azərbaycan xalqı, nə Azərbaycan dövləti heç vaxt imkan verə bilməz ki, tarixi torpaqlarımızda ikinci erməni dövləti yaradılsın. Biz buna heç vaxt imkan verməyəcəyik.

# Azərbaycan Respublikası Müdafiə nazirinin İspaniya Krallığına rəsmi səfəri



İspaniya Krallığında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov mayın 25-də ispaniyalı həmkarı Pedro Morenes Alvaro de Eulate ilə görüşüb.

İspaniyanın Müdafiə Nazirliyində Azərbaycanın Müdafiə nazirinin rəsmi qarşılanma mərasimi keçirilib. Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda general-polkovnik Zakir Həsənovun şərəfinə fəxri qarovul dəstəsi düzülüb, Azərbaycanın və İspaniyanın dövlət himnləri səsləndirilib.

Sonra nazirlərin təkbətək görüşü keçirilib.

Daha sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib.

Görüşdə ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin vacibliyini qeyd edən İspaniyanın Müdafiə naziri vurğulayıb ki, bu cür səfərlər intensiv şəkildə həyata keçirilməlidir.

İspaniyalı nazir bildirib ki, Azərbaycanın Müdafiə nazirinin də İspaniyaya səfəri ölkələrimiz arasında əlaqələrin, o



cümlədən hərbi sahədə əməkdaşlığımızın perspektivlərinin səmərəli müzakirəsi üçün yaxşı imkan yaradır. Bunun ümumi işimizin inkişafına xidmət edəcəyinə ümidvaram.

General-polkovnik Zakir Həsənov Cənubi Qafqaz regionundakı hərbi-siyasi vəziyyət, cəbhə bölgəsində yaşanan son hadisələr, ölkəmizin Avropa və Avratlantik qurumlarla əlaqələri barədə ətraflı məlumat verib.

"Biz Azərbaycan ilə İspaniya arasında əlaqələrin genişləndirilməsinə xüsusi əhəmiyyət veririk. Ümummilli lider Heydər Əliyev tərəfindən daim diqqət mərkəzində olmuş Azərbaycan-İspaniya əlaqələri bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir", - deyə Azərbaycanın Müdafiə naziri bildirib.

Azərbaycan-İspaniya əməkdaşlığının bütün istiqamətlərdə, o cümlədən hərbi sahə üzrə müqavilə-hüquq bazasının genişləndirilməsinin zəruriliyi qeyd edildiyi görüşdə aparılan danışıqların ölkələrimizin Silahlı Qüvvələri arasında əlaqələrin inkişafına, dostluq münasibətlərinin möhkəmlənməsinə töhfəsini verəcəyinə əminlik ifadə olunub.

İspaniyanın Müdafiə naziri Pedro Morenes Alvaro de Eulate bildirib ki, bu görüş çox arzuolunan idi. Azərbaycan ilə İspaniya arasındakı əlaqələrin perspektivləri genişdir. Ölkələrimizin münasibətləri dostluğa və qarşılıqlı anlaşmaya əsaslanır. Ümumi layihələrimiz var.

İspaniyalı nazir vurğulayıb ki, sülhə təhlükə yaradan bütün elementlərlə mübarizə diqqət mərkəzindədir. "Bu mübarizədə ölkələrimiz eyni mövqedən çıxış edir. Mən görüşümüzdə söylədiyim bir ifadəni xüsusi vurğulamaq istəyirəm: "İspaniyanın və Azərbaycanın dostları da, düşmənləri də eynidir". Mənim cənab nazirlə dostluğum Bakı səfərindən başlayır. Ona görə də bu səfər mənim üçün önəmli idi. Hesab edirəm ki, mənim fikirlərimi azərbaycanlı həmkarım da bölüşür. Biz də müəyyən təhlükəli məqamlardan keçmişik. Belə razılığa gəlindi ki, imkan daxilində bütün mümkün əməkdaşlığı davam etdirək."

Azərbaycanın Müdafiə naziri Zakir Həsənov səfərin yüksək səviyyədə təşkilinə görə ispaniyalı həmkarına təşəkkür edib. Nazir qeyd edib ki, ölkələrimiz arasında əməkdaşlıq imkanları çox genişdir. Görüşdə bu imkanlar müzakirə olundu. Əməkdaşlıq həm iki ölkə arasında, həm də NATO çərçivəsində inkişaf edir. "İspaniyalı həmkarım yeni maraqlı təkliflərlə çıxış etdi və biz bu təkliflərlə razıyıq", - deyən nazir İspaniya-Azərbaycan dostluğunun əbədi olduğunu qeyd edib. İspaniyalı nazirin görüşdə dediyi "İspaniyanın və Azərbaycanın dostları da, düşmənləri də eynidir" ifadəsini xüsusi vurğulayan Zakir Həsənov bu mövqeyinə görə həmkarına minnətdarlığını bildirib.

* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İspaniya Krallığına rəsmi səfəri çərçivəsində mayın 25-də bu ölkənin Silahlı Qüvvələri tərkibində fəaliyyət göstərən UME birləşməsini və "İndra sistemləri" şirkətini ziyarət edib.



Müdafiə naziri UME-nin fəaliyyətini əks etdirən təqdimatı izləyib və Məlumat Mərkəzi ilə tanış olub. Bildirilib ki, bu mərkəzə İspaniya və dünyada baş verən böhran hadisələri haqqında məlumat daxil olur və fəaliyyətlər barədə məlumatlar buradan izlənilir.

Azərbaycan nümayəndə heyəti Madriddə fəaliyyət göstərən "İndra sistemləri" şirkətində də olub.

Məlumat verilib ki, "İndra sistemləri" müxtəlif sahələr üzrə texnoloji həllər təklif edən şirkət olaraq nəqliyyat, daşımalar, energetika, istehsal, dövlət qurumları, maliyyə, təhlükəsizlik və müdafiə, kütləvi informasiya vasitələri istiqamətində fəaliyyət göstərir.

* * *

İspaniya Krallığında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bu ölkənin xarici işlər üzrə dövlət katibi İqnasio İbanez Rubio ilə görüşü olub.

Azərbaycan-İspaniya əməkdaşlığının hazırkı vəziyyətindən, xüsusən də siyasi müstəvidə əlaqələrin səviyyəsindən məmnunluğun ifadə edildiyi görüşdə general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində yaranan son gərginlik və Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlar, onların nəticələri, eləcə də münaqişənin həlli istiqamətində aparılan son danışıqlar barədə qarşı tərəfə məlumat verib. Nazir bildirib ki, münaqişənin həllinə nail olmaq məqsədilə Ermənistan qoşunları işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılmalı, hərbi işğal faktına son qoyulmalıdır.

Dövlət katibi isə öz növbəsində ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini diqqətə çatdırıb.

Görüşdə hər iki ölkənin BMT, ATƏT, NATO, Avropa Şurası, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlıqda maraqlı olduqları bildirilib. Bundan əlavə, beynəlxalq terrorizmə və separatizmə qarşı mübarizə sahəsində Azərbaycan ilə İspaniya arasında əməkdaşlığın inkişaf etdirilməsinin və bu məsələlərdə qarşılıqlı dəstəyin vacibliyi qeyd edilib.




**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan ilə ABŞ-ın Avropadakı quru qoşunları arasında əməkdaşlıq məsələləri müzakirə olunub



***Mayın 26-da Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ölkəmizdə səfərdə olan ABŞ-ın Avropadakı quru qoşunlarının komandanı general-leytenant Frederik Ben Hodcesin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Qonaqları salamlayan Baş Qərargah rəisi Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində son zamanlar yaranan gərginlik, o cümlədən atəşkəsin pozulması səbəbləri, Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlar və onların nəticələri barədə qarşı tərəfə ətraflı məlumat verib.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən və qonaqpərvərliyə görə təşəkkürünü bildirən general-leytenant B.Hodces bu görüşün Azərbaycan ilə ABŞ-ın Avropadakı quru qoşunları arasında əməkdaşlığın genişləndirilməsinə zəmin yaradacağına ümidvar olduğunu bildirib.

Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, beynəlxalq sülhməramlı missiyalarda uğurlu əməkdaşlıq, eləcə də hərbi təhsil, treninq və qarşılıqlı təcrübə mübadiləsi sahəsində məsələlər ətraflı müzakirə olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, foto Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***25 may 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 13 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber və Noyemberyan rayonunun Dovex kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikası Qazax rayonunun Quşçu Ayrım və Kəmərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***26 may 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 13 dəfə pozub.

Tərtər rayonunun Çiləbürt, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

***27 may 2016-cı il.***

Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 46 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Naxçıvanda zabit heyətinin təkmilləşdirilməsi kursunun ilk buraxılışı olub

***Bu günlərdə Əlahiddə Ümumqoşun Orduda əlamətdar bir hadisəni işıqlandırmaq üçün hərbi hissələrimizdən birinə yola düşürəm. Buraya çatanda hərbi hissənin üçrəngli, ayulduzlu bayrağımızla bəzədilməsinin şahidi oldum. Şəxsi heyət Əlahiddə Ümumqoşun Orduda zabit heyətinin təkmilləşdirilməsi kursunun ilk buraxılışına həsr olunmuş mərasimə toplaşmışdı.***



Mərasimdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sonra zabitlərdən Mənsim Əhmədov çıxış edərək bildirdi ki, bu gün Naxçıvan Muxtar Respublikasında Vətənə sədaqətli, peşəkar hərbçi kadrların hazırlanması diqqət mərkəzindədir. Bütün bunların nəticəsidir ki, Əlahiddə Ümumqoşun Orduda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir və zabit hazırlığı kursları təşkil edilir. Bu kursları müvəffəqiyyətlə bitirən məzunlar öz xidmətlərini ordu sıralarında şərəflə və məsuliyyətlə yerinə yetirirlər.

Həmçinin Əlahiddə Ümumqoşun Orduda zabit heyətinin təkmilləşdirilməsi kursu fəaliyyət göstərir. Artıq zabitlər növbəti yuxarı vəzifələrə təyin olunmaq üçün bu kurslarda hazırlıq keçir və peşəkarlıq səviyyələrini artırırlar.

Mərasimdə məzunlar adından baş leytenant Aysiman Əsədov çıxış edərək yaradılan şəraitə görə öz minnətdarlığını bildirdi.

Azərbaycan Respublikası Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordunun komandanı general-leytenant Kərəm Mustafayev zabit heyətinin təkmilləşdirilməsi kursunu bitirən məzunları təbrik edərək bildirdi ki, ümummilli lider Heydər Əliyevin ordu quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər bu gün uğurla davam etdirilir və bu məqsədyönlü iş Naxçıvan Muxtar Respublikasında da qətiyyətlə həyata keçirilir. "Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin qayğısı ilə hərbi hissələrin maddi-texniki təminatı möhkəmlənir, şəxsi heyətin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı səviyyəsi əhəmiyyətli dərəcədə artırılır.

Həyata keçirilən tədbirlərin, hərb işinə verilən önəmin nəticəsidir ki, bu gün Əlahiddə Ümumqoşun Orduda hərbi qulluqçuların peşəkar döyüşçü kimi hazırlığı sahəsində ardıcıl tədbirlər həyata keçirilir. Bütün bunlar deməyə əsas verir ki, Əlahiddə Ümumqoşun Ordunun varlığı qədim diyarın malik olduğu hərbi qüdrəti özündə əks etdirməklə bərabər, düşmənin də qorxulu kabusuna çevrilib."



Əlahiddə Ümumqoşun Ordu komandanı tərəfindən kursu yüksək qiymətlərlə bitirən zabitlərə sertifikatlar və qiymətli hədiyyələr təqdim edildi.

Kurs birincisi Aysiman Əsədov tərəfindən yaş kötüyünə buraxılış emblemi vuruldu.

Daha sonra zabit heyətinin təkmilləşdirilməsi kursunu uğurla başa vuranların ixtisaslarına uyğun növbəti yuxarı vəzifələrə təyin olunmaları ilə bağlı verilən əmrlər mərasim iştirakçılarının nəzərinə çatdırıldı.

Sonda məzunlarla xatirə şəkli çəkdirildi.

Tədbirdən sonra kursu 1-ci, 2-ci və 3-cü yerlərdə tamamlayan zabitlərdən Aysiman Əsədov, Şamil Ağaməmmədov və Namiq Babayevlə həmsöhbət oldum. Onlar bildirdilər ki, hər bir zabit ordumuzun güclənməsi, inkişafı və işğal altında olan torpaqlarımızın azad olunması üçün öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməlidir. "Biz də kurs müddətində əldə etdiyimiz bilik və bacarıqlardan səmərəli istifadə edərək tabeliyimizdə olan şəxsi heyətin əsl döyüşçü kimi formalaşması üçün əlimizdən gələni əsirgəməyəcəyik."

**Nəriman NƏCƏFOV, "Azərbaycan Ordusu", fotolar Aydın ORUCOVUNDUR**

# Azadlığa sahib olmaq böyük səadətdir

## Silahlı Qüvvələrimizdə Respublika Gününə həsr edilmiş tədbirlər keçirilib






***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində təşkil edilən mərasimlərdə öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin, əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.***

Cəmşid Naxçıvanski adına Hərbi Liseydə mayın 26-da 28 May Respublika Gününə həsr edilmiş maraqlı tədbir də yaddaqalan oldu. Zabit, müəllim və kursant heyətinin, qonaqların iştirak etdiyi mərasimi giriş sözü ilə polkovnik-leytenant Kamran Nəsibov açdı.

Məktəbin Konstitusiya müəllimi Naibə Şəmşiyevanın quruluş verdiyi ədəbi-bədii kompozisiyanı yeniyetmə kursantlar həvəslə nümayiş etdirdilər. Onların çıxışlarını tariximizin həssas dövrünə həsr edilmiş video-çarx sanki tamamlayırdı.



Azərbaycan dövlətçiliyinin ən önəmli məqamlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdə böyük önəm daşıdığına diqqəti cəlb edən aparıcılar onun XX yüzilliyin əvvəlində Şərqdə ilk demokratik dövlət olduğunu qürurla söylədilər. Qeyd olundu ki, cəmi 23 ay mövcud olmuş Cümhuriyyət 1918-ci il mayın 28-də keçirilən tarixi iclasında "İstiqlal Bəyannaməsi"ni qəbul etdi, qısa müddət ərzində bir sıra mühüm islahatlar həyata keçirdi.

Bolşevik Rusiyasının işğalı nəticəsində suveren dövlətçiliyimizə son qoyulsa da, 70 il sonra xalqımız öz müstəqilliyinə yenidən qovuşdu. Ancaq müstəqilliyimizin ilk illəri heç də asan keçmədi, ölkəmiz havadarlarına arxalanan Ermənistanın təcavüzü ilə üz-üzə qaldı. Yalnız böyük dövlət xadimi Heydər Əliyev xalqın təkidilə hakimiyyətə qayıtdıqdan sonra ölkəmiz sabitlik və iqtisadi inkişaf dövrünə qədəm qoydu, elmi əsaslarla ordu quruculuğuna başlandı.

Ulu öndərin yolunu onun layiqli yetirməsi Prezident İlham Əliyev uğurla davam etdirdi. Azərbaycan iqtisadi, siyasi, sosial və mədəni sahələrdə böyük nailiyyətlərə imza atdı, dünya dövlətləri arasında öz layiqli yerini tutdu.

Silahlı Qüvvələrimiz qısa vaxt ərzində Cənubi Qafqazın ən qüdrətli güc strukturuna çevrildi. Bunu aprelin əvvəllərində təmas xəttində kənd və qəsəbələrimizi hücuma məruz qoyan düşmənə bölmələrimizin qətiyyətli cavabı və bir sıra önəmli yüksəkliklərin ordumuzun nəzarətinə keçməsi bir daha sübut etdi. Yeri gəlmişkən, həmin döyüşlərdə şücaət göstərmiş və Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş üç hərbçimizdən ikisi - zabitlər Şükür Həmidov və Murad Mirzəyev (ölümündən sonra) Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirmələridir. Aparıcılar qürur hissilə bildirdilər ki, şəhidlərimizin qanı bahasına əldə edilmiş dövlət müstəqilliyimizin qorunub saxlanması, onun dönməz, sarsılmaz və əbədi olması gənc neslin ləyaqət və namus borcudur.

Sonda vətənpərvərlik mövzusunda şeirlər səsləndirildi.

* * *

Qırğız yazıçısı Çingiz Aytmatovun "Gün var əsrə bərabər" romanını xatırlayıram...

Gün var tarix olduğu üçün, sonrakı tarixin başlanğıcı olduğu üçün əsrin sərhədlərini də aşır. Belə tarixləri xalqımız həmişə böyük ehtiramlarla anır. Mayın 28-i belə tarixlərdəndir...

Bütün təsisatlarıyla yaşayan, var olan, yaşadan Azərbaycan Demokratik Respublikasını (ADR) dünyanın əksər dövlətləri rəsmən tanıdı. ADR Şərqdə ilk demokratik respublika idi.

Rus imperiyasının siyasi, ideoloji və hərbi müdaxiləsi nəticəsində gənc müstəqil respublika süquta uğradı. Asılılıq zənciri 73 ildən sonra qırıldı. Azərbaycan yenidən müstəqil dövlət kimi mövcud oldu. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə qayıdışıyla müstəqil Azərbaycanın dövlətçiliyi möhkəmləndirildi, dünyanın güclü dövlətlərinin aparıcı tərəfdaşı oldu. İndi Azərbaycan istər siyasi, iqtisadi, istərsə də hərbi gücü ilə tanınır. Cənubi Qafqazda ən güclü ordu Azərbaycanın Ordusudur.

Respublika Günü Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də böyük coşqu ilə anıldı.

Tədbiri polkovnik-leytenant Mikayıl Hüseynov açaraq Azərbaycan Demokratik Respublikasının dövlətçiliyimiz tarixində mövqeyindən və tarixin sonrakı dönəmlərində müstəsna rolundan danışdı.

Söz Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin əməkdaşı Gülxar Məmmədovaya verildi. O, dövlətçilik tariximizdən, demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı tarixi şəraitdən və



süqutunun səbəblərindən danışaraq qeyd etdi ki, xalqımız öz tarixinə həmişə sayğılar göstərib. "Hərbçilərin dövlətçilik tariximizdə xidmətləri heç zaman unudulmayacaq, onlar həmişə ehtiramla əhatələnəcəklər. Kursantların görüşünə gəlməyimiz də bu ehtiramın təsdiqidir..."

Tədbir Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solistlərinin maraqlı konsert proqramı ilə davam etdi. Konsertdə ifa edilən vətənpərvərlik mahnıları ("Azərbaycan", "Lələtəpə fatehləri", "Vətən oğlu" və s. kursantların böyük coşqusu ilə qarşılandı. "Lələtəpə fatehləri" mahnısının nəqaratını kursantların da ifa etməsi təkcə mahnının yüksək



bədii dəyəri, aşıladığı məzmunla bağlı deyildi. Mahnı aprel döyüşlərində qazandığımız qələbənin ünvanlarından birinə həsr olunub. Nəqaratın birlikdə ifası bu qələbəyə ad olan sevincin, həmrəyliyin təzahürüydü...

* * *

Mayın 25-də Azərbaycan Hərb Tarixi Muzeyində də Respublika Gününə həsr olunmuş "İstiqlal yollarında" adlı tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan muzeyin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə dövlətçilik salnaməmizin şərəfli tarixi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından, onun tariximizdə rolundan, müstəqilliyimizin bərpası və qorunub saxlanılması istiqamətində ölkəmizdə görülən işlərdən danışıb. "Hər il bu tarixi gün ölkəmizdə böyük təntənə ilə qeyd edilir. Çünki Azərbaycan 1918-ci il mayın 28-də azadlığa qovuşub. Məhz həmin gün qəbul edilən "İstiqlal Bəyannaməsi"ndə müstəqilliyimiz rəsmən elan edilib. Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində yaranmış ilk demokratik respublika idi."

Çıxışda qeyd olunub ki, müstəqilliyə gedən yol böyük mübarizələrdən keçir. Azərbaycan Xalq Cümhuriyyətinin ideyaları davam etdirilərək, ötən əsrin sonlarında məhz həmin tarixi varislik üzərində müstəqil Azərbaycan dövləti yaradılıb.

Muzeyin rəisi ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin qorunması istiqamətində həyata keçirdiyi müdrik siyasətindən danışıb, həmçinin bugünkü irəliləyişə nail olmağımızın səbəblərini qeyd edib, ölkə Prezidenti İlham Əliyevin dövlətçiliyimizin möhkəmlənməsi naminə gördüyü işlərin əhəmiyyətindən söz açıb.

Tədbirdə "Müstəqil türk dünyasının ilk demokratik respublikası", "Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti" və "Azərbaycan Xalq Cümhuriyyəti milli dövlətçilik tariximizin şərəfli səhifəsidir" mövzularında məruzələr dinlənilib.

Çıxışlarda dövlətçilik ənənələrimizin formalaşması üçün görülən işlərdən danışılıb, respublika quruluşunun yenidən bərpa olunması və inkişaf etdirilməsi istiqamətində ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətlərindən və bu siyasətin hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilməsindən söz açılıb.

Tədbir hərbi vətənpərvərlik mövzusunda video-kliplərin nümayişi ilə başa çatıb.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# “Əsgərlərimizin döyüş ruhu yüksəkdir”

## Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri cəbhə bölgəsində

***Həmişə Azərbaycan Ordusunun yanında olan Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin kollektivi aprel döyüşlərində bölmələrimizin düşmən üzərində qazandığı qələbəni də böyük fərəh hissilə qarşıladı. Cəbhə bölgələrində döyüş növbəsi aparan zabit və əsgərlərimizə tez-tez baş çəkən xeyirxah kollektiv bu günlərdə yenə ön xətdə olub və Vətənimizin müdafiəsində ayıq-sayıq dayanmış cəsur Azərbaycan oğulları ilə görüşüb.***





Öncə "N" hərbi hissəsinin qərargahında general-mayor Mais Bərxudarov qonaqları səmimi qarşıladı və ön xətdə döyüş növbəsi aparan bölmələrimizin Vətənə ləyaqətlə xidmət etməsi, aprelin ilk günlərində baş vermiş döyüşlərdə göstərdikləri fədakarlıq barədə məlumat verdi.

Sonra komitə üzvləri zabit Elçin Kərimovun müşayiəti ilə ön xətdə gecə-gündüz döyüş növbəsi aparan Vətən oğullarının görüşünə yola düşdülər. Qonaqlar Vətən oğullarının işğalçılardan azad etdikləri yerləri gəzdilər, necə deyərlər, bölmələrimizin göstərdiyi şücaətin nəticələrilə yerində tanış oldular. Fürsətdən istifadə edib cəsur əsgərlərimizin komandirilə qısa söhbət edirəm.

- Burada döyüş növbəsi aparan bölmə bizimdir, - zabit Rüstəm Bədəlov deyir. - Bütün şəxsi heyət son günlərdə düşmənə qarşı rəşadətlə vuruşmuşdu. Onlardan biri - zabit Şamil Əliyev öz bölməsinə məharətlə rəhbərlik etmişdi. O, ilk gündən düşmənə qarşı mübarizədə fəal iştirak edib. Sevindirici haldır ki, onun bölməsi bu döyüşdə heç bir itki verməyib.

Zabitin söhbətinə görə, tank əleyhinə manqanın komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Məhəmməd Bağırlı da öz heyətilə mövqelərimizə hücum edən düşmən tanklarının qarşısını fədakarlıqla almışdı. "Gördüyünüz kimi, əsgərlərimizin döyüş ruhu yüksəkdir. Hərbi qulluqçularımız öz mövqelərini ayıq-sayıq qoruyurlar. Onlar postlarda diqqətlə müşahidə aparır və düşmənin hər bir hərəkətini izləyirlər. Hamının bu dəqiqə bir arzusu var: işğalda olan torpaqlarımızı tamamilə azad etmək."

Təsadüfi deyil ki, ordunu xalqın övladı hesab edirlər. Doğrudan da, bu gün ordumuz həm dövlət qayğısı ilə əhatə edilib, həm də xalqımızın böyük dəstəyini hiss edir. Ona görə də ordumuz Cənubi Qafqazda yenilməz qüvvəyə çevrilib. Xalqın bağrından qopmuş Silahlı Qüvvələrimizin hissə və bölmələri günügündən hazırlığını daha da artırır, yüksək döyüş ruhu ilə qarşısına qoyulmuş tapşırıqları yerinə yetirir."

Zabitə görə, işğaldan azad edilmiş ərazidə qısa zamanda həyata keçirilən mühəndis-istehkam işlərinin miqyası, doğrudan da, adamı heyrətə gətirir. "Burada ən ucqar mövqelərə yeni və təhlükəsiz yollar çəkilib, hər cür şəraitə malik yataqxanalar inşa edilib. Bölmələrimizin döyüş növbəsi apardığı postlar əsgərlərin təhlükəsizliyi məqsədilə yetərincə möhkəmləndirilib."

Aprel döyüşlərində düşmənə qarşı mərdliklə vuruşmuş Vətən oğullarının bir qrupu bölmənin qarşısında düzülmüşdü. Son döyüşlərdə göstərdiyi igidliyə görə, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş zabit Şükür Həmidov da burada idi. Sadə və yetərincə təvazökar təsiri bağışlayan qəhrəmana qonaqlar xüsusi rəğbətlə baxırdılar.

Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri burada zabit və əsgərlərlə görüşüb söhbət etdilər, aprelin ilk günlərində cərəyan etmiş hadisələr barədə döyüşçülərin öz dillərindən eşitdilər.

Qəhrəman döyüşçüləri salamlayan komitənin sədri Abiyat Ağadadaşova torpaqlarımızın bir qisminin işğalçılardan təmizlənməsi münasibətilə onları səmimi qəlbdən təbrik etdi. O, cəsur zabit və əsgərləri qiymətli hədiyyələrlə, məşhur firmanın istehsal etdiyi qol saatları ilə mükafatlandırdı. Həmkarlar təşkilatının nümayəndələri şirniyyat sovqatını da döyüşçülərə payladılar.

- Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin üzvləri birinci dəfə deyil ki, əsgərlərimizlə görüşə gəlir, - bizimlə söhbətində zabit Elçin Kərimov bildirdi. - Döyüşlər səngidikdən üç-dörd gün sonra Abiyat xanım bizə zəng elədi ki, təşkilatın nümayəndələri şəxsi heyətlə görüşə gəlmək istəyirlər. Həmin vaxt imkan olmadığından bu görüş baş tutmamışdı. Həmkarlar komitəsinin gəlişi, sözsüz ki, şəxsi heyətə xoş ovqat aşılayır. Təşkilatın üzvlərinə, şəxsən Abiyat xanım Ağadadaşovaya bu xeyirxah təşəbbüsə görə komandanlıq və şəxsi heyət adından öz minnətdarlığımı bildirirəm.

Çox təqdirəlayiq ənənədir ki, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri tez-tez cəbhə bölgələrinə üz tutur, Vətənimizin müdafiəsi, xalqımızın əmin-amanlığı naminə döyüş növbəsi aparan bölmələrimizdə görüşlər keçirirlər. Onlar mənəvi dəstəkləri ilə qəhrəman oğullarımızda ruh yüksəkliyi yaradırlar.



Aprel döyüşləri zamanı Müdafiə naziri general-polkovnik Zakir Həsənova Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin çoxsaylı üzvləri adından müraciət ünvanlanmış, hadisələrə münasibət bildirilmişdi. Azərbaycan oğullarının cəbhədə qazandığı növbəti parlaq qələbəni ürəkdən alqışlayan komitənin kollektivi ordunun şəxsi heyətini cəbhədə qazanılmış qələbə münasibətilə təbrik etmişdi.

- Ordumuzun düşmən üzərində qələbəsi hər birimizi sevindirdi, - Abiyat xanım bizimlə söhbətində dedi. - Bu torpaqlar illər öncə əlimizdən getmişdi, Azərbaycan əsgəri onu bizə qaytardı. Ən əsası da odur ki, ordumuzda bacarıqlı komandirlər çoxdur. Döyüşlərdə də əsgərlər öz komandirlərindən nümunə götürdülər. Bizim üçün bundan böyük sevinc ola bilməz. Allah onların hamısını qorusun.

Komitə sədri ön xətdə gördüklərindən aldığı təəssüratı da bölüşdü:

- Döyüşçülərimizin uğurlarını, ön xətdə baş vermiş dəyişiklikləri öz gözlərimizlə gördük. Düşməni məğlub etmiş zabit və əsgərlərimizlə ünsiyyətdən aldığımız təəssürat tamamilə fərqlidir. Doğrudan da, burada böyük dəyişikliklər baş verib. Xeyli ərazi düşməndən təmizlənib, nə qədər yol çəkilib, möhkəmləndirmə işləri aparılıb, əsgər yataqxanaları inşa edilib. Qısa vaxt ərzində bu qədər tikinti işləri aparmaq, hər şəraitə malik əsgər yataqxanaları tikmək, istehkam işlərini yerinə yetirmək özü bir qəhrəmanlıqdır. Əsgərlərimizin yataqxanalarına da baxdım - hər şey tərtəmiz, yaraşıqlıdır, müasir şəraitdə yaşayırlar. Heç deməzsən ki, düşmənlə üzbəüz ərazidə çöl şəraitində xidmət aparırlar.

Komitə sədri onu da vurğuladı ki, ordumuzun maddi köməyə əslində ehtiyacı yoxdur. "Dövlət öz Silahlı Qüvvələri üçün hər cür şərait yaradıb. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində Silahlı Qüvvələrimiz hərtərəfli təmin edilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun komandanlığı ilə ordumuz günü-gündən döyüş bacarığını artırır. Qazanılan nailiyyətlər isə bizi ürəkdən sevindirir", - deyə Abiyat xanım bildirdi və əlavə etdi: “Biz sadəcə əsgər və zabitlərimizə mənəvi dəstəyimizi veririk. Gətirdiyimiz hədiyyələri, sovqatı məmnuniyyətlə döyüşçülərimizə təqdim etdik, onların sevincinə sevinc qatmaq üræyimizdən oldu.”

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Döyüş yolu keçmiş hərbi hissənin ildönümü qeyd edilib

*Silahlı Qüvvələrimizin artilleriya bölmələri arasında xüsusi yeri olan "N" hərbi hissəsi mürəkkəb tarixi bir şəraitdə - ölkəmizdə müharibə getdiyi dövrdə yaradılıb. Həmin gündən hərbi hissənin kollektivi Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda döyüşlərdə fəal iştirak edib.*





Tərtər, Goranboy, Tovuz, Qazax, Ağdam, Füzuli və digər bölgələrimizdə gedən hərbi əməliyyatlarda şanlı döyüş yolu keçmiş hərbi qulluqçulardan iki nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb, onlarla döyüşçü isə orden və medallarla təltif edilib. Bütün bunlar barədə hərbi hissənin ildönümü mərasimində geniş söhbət açılıb.

Əvvəlcə tədbirdə ulu öndərimiz Heydər Əliyevin və torpaqlarımızın toxunulmazlığı uğrunda mübarizədə şəhid olmuş vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə təbriki oxunub.

Sonra zabitlər Vüqar Məmmədov, Elşən Vəliyev və başqaları çıxış edərək ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu strategiyasının müasir dövrdə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan Ordusunun regionun ən güclü ordusu olduğunu qeyd ediblər. Bildirilib ki, hərbi hissə çətin bir dövrdə yaradılmasına baxmayaraq, üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlib və artilleriya qüvvələri sırasında layiqli yer tutub.

Azərbaycan Ordusunun aprel zəfərindən danışan zabitlər bu hərbi əməliyyatda cəbhə xəttində yerləşən artilleriya bölməsi kollektivinin də fədakarlıq nümunələrindən qürurla söhbət açıblar. Onlar əminliklə bildiriblər ki, ümummilli liderimizin memarı və qurucusu olduğu ordumuzun hərbi qüdrətinin möhkəmlənməsi naminə artilleriyaçılar bundan sonra da istənilən döyüş vəzifəsini şərəflə yerinə yetirəcəklər.

Sonda hərbi xidmətdə fərqlənənlər mükafatlandırılıb.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

*1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür*

# Uşaqlar bizim gələcəyimizdir

*1950-ci il iyunun 1-də BMT Baş Assambleyasında qadınların beynəlxalq konfransı keçirildi. Konfransda irəli sürülən əsas təkliflərdən biri uşaqların hüquqlarının təmin edilməsi idi. Qadınların bu təklifi nəzərə alınaraq həmin gün uşaqların beynəlxalq müdafiəsinə dair qərar qəbul edilir. Elə həmin vaxtlardan hər il iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd edilir.*



Azərbaycan müstəqillik qazanandan bu günə kimi ölkəmizdə də bu tarixi gün qeyd edilir. Uşaqlar bizim gələcəyimizdir, buna görə də onların milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə edilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli liderimiz Heydər Əliyev uşaqların yaxın dostu idi. O, böyüməkdə olan nəslin tərbiyəsinə hər zaman diqqətlə yanaşırdı.

Ümumiyyətlə, dahi rəhbərin Azərbaycana rəhbərliyi dövründə gənc nəslin sağlam böyüməsi, düzgün təlim-tərbiyə alması üçün hər cür şərait yaradılmışdı. Hazırda bu siyasət onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilir. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva isə xüsusi qayğıya ehtiyacı olan, valideyn himayəsindən məhrum olan uşaqlara daim diqqət və qayğı ilə yanaşır.

Müstəqilliyimizin ilk illərində xalqımızın başına gətirilən müsibətlər, müharibələr uşaqların da həyatına mənfi təsir göstərmişdi. Gözləri qarşısında valideynlərinin, həmyaşıdlarının həlak olması, işğəncələr, axıdılan qanlar onların psixologiyasına da öz təsirini göstərməyə bilməzdi. Həmin dövrdə məktəblər, tibb müəssisələri, mədəniyyət ocaqları dağıdılmışdı. Bu da uşaqların hüquqlarının pozulmasına gətirib çıxartmışdı.

Hazırda ölkəmizdə uşaqların dünyagörüşünün formalaşması, hüquqlarının qorunması üçün mühüm tədbirlər keçirilir, təhsil ocaqlarında onlara vətənpərvərlik və qəhrəmanlıq hissləri aşılanır. Gələcəyimiz olan balacaların Vətənə, millətə sədaqət ruhunda böyüdülməsi təkcə dövlət qurumlarının deyil, bütün cəmiyyətin vəzifəsidir. Ətrafımızda böyüyən uşaqları sabahın layiqli vətəndaşları kimi yetişdirmək hər birimizin borcudur.

Tanıdığım uşaqlardan biri - Qarabağ müharibəsi iştirakçısının qızı, dördüncü sinif şagirdi Fatimə Hüseynova məktəbdə əlaçıdır, keçirilən bayram tədbirlərində iştirak edəcək. İndidən tədbirdə çıxış etmək üçün "Ana", "Vətən" haqqında şeirləri öyrənir.

Nərgiz Paşayeva isə rəqs etməyi çox sevir, rəqs dərnəyinin üzvüdür.

Murad Əliyev dərsdən çıxan kimi kitabxanaya üz tutur, burada özünə lazım olan kitabları seçir, boş vaxtlarında mütaliə ilə məşğuldur. Ən çox oxuduğu kitab müharibə haqqındadır. Gələcəkdə hərbçi olmaq istəyir.

Uşaqların idmana olan həvəsi də böyükdür. Məktəblərin çoxu idman zallarına həvəslə gedir və müxtəlif idman növləri ilə məşğul olurlar. Bu uşaqlardan biri də Teymurdur. Vaxtilə onun atası İlqar Mehdiyev uşaqlara əlbəyaxa döyüşün sirlərini öyrədirdi. Teymur da bu idmanı atasından öyrənib. Artıq onun timsalında layiqli Vətən müdafiəçisi yetişir.

Göründüyü kimi, gələcəyimizi etibar edəcəyimiz balacaların təlim-tərbiyəsi üçün ölkəmizdə çox böyük işlər görülür, dövlət rəhbərliyi bu sahəyə diqqətini əsirgəmir. Biz də cəmiyyətimizi sağlam və parlaq görmək üçün uşaqlara qayğı göstərməli, əlimizdən gələni etməliyik.

**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### "Taliban" öldürülmüş liderinin varisini təyin edib



"Taliban" hərəkatı həyatını itirmiş liderlərindən biri olan molla Ahtar Məhəmməd Mansurun varisini təyin edib.

Bundan sonra "Taliban" hərəkatına Mavlavi Heybətullah Axundzadə başçılıq edəcək.

Xatırladaq ki, hərəkatın bundan əvvəlki lideri Ahtar Mansur mayın 21-də Pakistan-Əfqanıstan sərhədində ABŞ-ın pilotsuz təyyarəsinin zərbəsi nəticəsində həlak olub. Hadisə zamanı bombalanan avtomobildə "Taliban" lideri ilə yanaşı, hərəkatın digər bir üzvü də öldürülüb.

### Dubayda dünyanın ən böyük parkı tikilir



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində dünyanın ən böyük örtülü tematik əyləncə parkı açılacaq.

"Macəra dolu dünya" adlı parkın açılış tarixi avqustun 15-nə planlaşdırılır.

Birləşmiş Ərəb Əmirliklərində ən böyük korporasiyalardan sayılan "Ilyas and Mustafa Galadari Group"un rəhbərliyi ilə yaradılan bu kompleks ölkədə ən böyük beynəlxalq tematik park olacaq. Layihənin ümumi dəyəri bir milyard dollardan çoxdur. Kompleksə attraksionlu üç zona - "Marvel" komikslərinin kainatı üslubunda tərtib olunmuş seksiya, Amerika "Cartoon Network" telekanalının personajları əsasında yaradılmış ərazi və dinozavrlar parkı daxildir.

Parkda restoran və mağazalara da ayrıca yer ayrılıb.

### Pekində keçirilən sərgidə gələcəyin avtobusu nümayiş olunub



Pekində keçirilən yüksək texnologiyalar sərgisində yoldakı digər avtomobillərə maneçilik törətməyən avtobusun maketi nümayiş etdirilib.

Konstruktorların fikrincə, yeni nəqliyyat növü yolları tıxaclardan xilas etməyə yardımçı olacaq - avtomobillər birbaşa onun altından keçib gedə biləcəklər. Çinlilər tərəfindən hazırlanacaq "Transit Elevated Bus" adlı bu avtobus 4,6 metr hündürlüyə, 8 metr enə, təxminən 32 metr uzunluğa malik olacaq və 1200-dək sərnişin daşıya biləcək.

"Transit Elevated Bus"un yaradıcıları onun metro və ya monorelslərdən geri qalmayacağını, lakin onlardan dəfələrlə ucuz başa gələcəyini qeyd edirlər. Belə nəqliyyat vasitəsinin hazırlanmasına bir il vaxt lazım gələcəyi bildirilir.

### Son günlərdə Sina yarımadasında 88 terrorçu məhv edilib



Misir Silahlı Qüvvələrinin komandanlığı son dörd gün ərzində Sina yarımadasında 88 ekstremistin məhv edildiyini bildirib. Şeyx Zuveyda, Rafaha rayonları və Sina yarımadasının mərkəzi hissəsində Hərbi Hava Qüvvələrinin aviazərbələri və artilleriya atəşlərindən sonra terrorçuların 190 dislokasiya yeri, 57 ev dağıdılıb və yandırılıb. Üç şübhəli şəxsin həbs edildiyi barədə məlumat verilir. Həmçinin terrorçuların nəzarət postlarına və təhlükəsizlik qüvvələrinə hücumlarda istifadə etdiyi 10 avtomobil və beş motosiklet məhv edilib, 73 bunker və sığınacaq ləğv olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# Veteranlar Təşkilatında 28 May - Respublika Günü qeyd edilib

*Bakı Slavyan Universitetinin tələbələrinin təşəbbüsü ilə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Gənclərdə milli ruhun gücləndirilməsi" şüarı ilə 28 May-Respublika Gününə həsr edilmiş konsert proqramı təşkil olunub.*



Tədbirdə Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Respublika Veteranlar Təşkilatının əməkdaşı Səidə Abdullayeva çıxış edərək yaşlı və gənc nəslin Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı günün geniş qeyd edilməsinin əhəmiyyətini vurğulayıb.

Sonra Respublika Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev çıxış edərək 28 May-Respublika Gününün əlamətdar hadisə olduğunu bildirib. O, müstəqillik uğrunda canından keçmiş şəxslərin xatirəsinin əbədiləşdirilməsinə və veteranlara göstərilən dövlət qayğısından danışıb. Gənclərin bu təşəbbüsünü alqışlayan D.Rzayev onlara təhsildə və ictimai həyatda uğurlar arzulayıb.

Tələbə Xanım Bünyatova və başqaları 28 May-Respublika Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib, gənclərdə milli ruhun güclənməsində veteranların rolundan danışıb, vətənpərvərlik tərbiyəsinin onların təhsilində böyük əhəmiyyət daşıdığını vurğulayıblar.

Çıxışlardan sonra musiqisi bəstəkar Sevinc Tofiqqızına məxsus olan vətənpərvərlik mövzusunda çəkilmiş "İgidlər yurdusan, ey Azərbaycan" videoçarxı nümayiş etdirilib.

Bəstəkar çıxışında musiqinin ərsəyə gəlməsindən danışıb və bu musiqinin torpaqlarımız azad olunduqdan sonra Qarabağda səslənməsini arzulayıb.

Sonra rəngarəng musiqi nömrələri, rəqslər və şeirlər təqdim olunub.

Tədbirdə məktəblilərin ifa etdikləri "Mən fəxr edirəm ki, azərbaycanlıyam", "Vətən uğrunda", "Sarı gəlin", "Şəhid arzuları", "Çırpınırdın, Qara dəniz" mahnıları, şeirlər alqışlarla qarşılanıb.

Respublika Veteranlar Təşkilatının sədri, general-mayor Dadaş Rzayev tələbə və şagirdlərə təşəkkürnamələr təqdim edib.

Ehtiyatda olan polkovnik Cəlil Xəlilov konsert proqramı təşkil etmək təşəbbüsünə görə gənclərə təşəkkürünü bildirib və onların vətənpərvərlik mövzusunda çıxışlarının təqdirəlayiq olduğunu deyib. C.Xəlilov gənclərin müharibənin od-alovundan çıxmış şəxslərlə ünsiyyətinin əhəmiyyətini yüksək qiymətləndirib.

**AZƏRTAC**

# Ermənistan Xarici İşlər Nazirliyinin növbəti uydurması

Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin BMT Baş Assambleyası və Təhlükəsizlik Şurasında "bəyanat" yayması barədə xəbərlər Ermənistan Xarici İşlər Nazirliyinin növbəti uydurmasıdır.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyevin açıqlamasında yer alıb.

Mətbuat xidmətinin rəhbəri deyib ki, Ermənistan Xarici İşlər Nazirliyində xülya və mifologiyanın reallıqla qarışıq salınması artıq heç kimi təəccübləndirmir. Əslində Ermənistanın BMT yanında daimi nümayəndəliyi öz statusundan sui-istifadə edərək və BMT sisteminə, üzv dövlətlərə hörmətsizlik nümayiş etdirərək qondarma rejim adından bu kimi kağız parçalarını yaymağa cəhd edir. Ətraf mühitə hörmətlə yanaşılan BMT sistemində adətən bu qəbildən olan izafi kağız parçaları maklatura məqsədilə istifadə edilir.

*Ovqat*

# Yaddaşlara hopan səs

***Dünyada səslər çoxdu. Suların şırıltısı, dalğaların çırpıntısı, yarpaqların pıçıltısı, qartalların qıy vurması, bülbüllərin cəh-cəhi, atların kişnərtisi... Bunların hamısı həmişə eşidənə xoş gəlib.***



Musiqi, ritm, melodiya da insanı sehrinə salır. İnsan həyatı boyu xoş musiqinin sehrindən, təsirindən çıxa bilmir. Məlahətli bir səs, gözəl bir avaz eşitdisə, ayaq saxlayıb onu dinləyir, nostalji hisslərə qapılır, xəyallara dalır.

Səsdə böyük güc, böyük qüdrət var...

Bu günlərdə hərbi hissədə keçirilən tədbirdə bunun bir daha şahidi oldum. Təbrik çıxışları başa çatandan sonra söz musiqiyə verildi. Müğənnilər bir-birindən gözəl mahnılar ifa edə-edə, tədbirə rəng qatdılar. Bir azdan aparıcı növbəti mahnının ifası üçün səhnəyə əsgər Əfqan Mahmudovu dəvət etdi.

Bəlkə də çoxları düşündü ki, peşəkar müğənnilərdən sonra əsgərin oxuduğu mahnılar iştirakçılara o qədər xoş təsir bağışlamayacaq.

Musiqi səsləndi, əsgər oxumağa başladı. Onun gur səsi meydanı başına götürdü. Bu səs elə ilk andan tədbir iştirakçılarına xoş gəldi. Yavaş-yavaş səs hamını sehirlədi. Əfqan oxuduqca səsi qəlblərə yatdı, ürəklərə axdı. Bu səs ruhumuza sakitlik gətirdi. Onun mahnıları alqışlarla qarşılandı...

Əsgərin səsi məlahətlidi, zəngulələri ürəkləri titrədirdi. Bu səs bulaq suyu kimi dupduru idi. Bu səs duyğuları oyadır, könülləri açırdı. Əfqanın səsində mübarizlik, məğlubedilməzlik ruhu var idi.

Alqış sədaları meydanı titrədirdi...

Əfqan Mahmudovun oxumaları bir-birini əvəz edir. Dəyişməyən Əfqanın səsiydi, avazıydı. Əsgəri eşitdikcə bir anlıq xəyallara dalırıq. Hiss olunurdu ki, məktəb keçib, ustad görüb. Musiqini yaxşı bilir, duyumludur. Bayaqdan əsən külək də sanki "ayaq" saxlayıb onun səsinə qulaq verir, mahnılarını dinləyirdi.

Sanki bu səs tədbirə Qarabağdan, Şuşadan xarı bülbülün ətrini gətirib. Elə bil bu səs arxamızca gəlib ki, bizi özü ilə çəkib işğal olunmuş o yerlərə aparsın.

Əfqanın mahnıları qulaqlarımda səsləndikcə gözlərim önündə onun mübariz, mərd üzü canlanır.

Əsgər Əfqan Mahmudovun elə öz səsi də iştirakçılar üçün sirli-sehirli qaldı. O səsin sehrini illərlə yaşayacam, unudulmaz səsdi axı...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan döyüşçüsü Nəriman Abbasov növbəti qələbəsini qazanıb



Azərbaycanın və "Qəbələ" idman klubunun döyüşçüsü Nəriman Abbasov növbəti qələbəsini qazanıb.

Təmsilçimiz Moskvada keçirilən qarışıq döyüş növləri (MMA) üzrə "Fight Nights Global 48" turnirində uğurla çıxış edib. O, "Qran-pri Fight Nights" yarışının birinci yarımfinalında İslam Beqidov ilə üz-üzə gəlib. 70,3 kiloqram çəki dərəcəsində baş tutan döyüşdə idmançımız rusiyalı rəqibini məğlub edib. N.Abbasov 3 raund davam edən gərgin görüşdə hakimlərin yekdil qərarı ilə qalib gəlib. Bu qələbə ilə təmsilçimiz Qran-prinin finalına vəsiqə qazanıb. Bu, onun MMA-da keçirdiyi 14-cü döyüşdə qazandığı 12-ci qələbədir.

Xatırladaq ki, idmançımız yarışın 1/4 final mərhələsində digər rusiyalı Nikolay Qaponovu məğlub etmişdi.

## Azərbaycan millisinin basketbolçusu Gürcüstan çempionu olub



"Kutaisi" klubu kişi basketbolçular arasında Gürcüstan çempionatının qalibi olub.

Azərbaycan millisinin basketbolçusu Zaur Paşayevin şərəfini qoruduğu komanda finalda "Dinamo"dan (Tbilisi) üstün olub. Həlledici seriyada hesab 2:2 olduğundan çempionun adına 5-ci matçda aydınlıq gəlib. Son oyunda rəqibini 76:71 hesabı ilə məğlub edən "Kutaisi" qızıl medala sahib olub.

## "Qarabağ" klubu dörd futbolçusu ilə müqaviləni yeniləyib



Mövsümü "Qızıl dubl" ilə başa vuran "Qarabağ" futbol klubunun heyəti istirahətə buraxılıb.

Komanda müqaviləsi başa çatan Ansi Aqolli, İlqar Qurbanov, Əfran İsmayılov və Muarem Muarem ilə sazişləri yeniləyib. Futbolçular növbəti mövsümdə də "Qarabağ"ın şərəfini qoruyacaqlar.

## Futbol üzrə Azərbaycan və Andorra millilərinin yoldaşlıq görüşü qolsuz başa çatıb



Avstriyada təlim-məşq toplanışında iştirak edən futbol üzrə Azərbaycan milli komandası mayın 26-da Bad Erlax şəhərində Andorra yığması ilə yoldaşlıq oyunu keçirib.

Bakı vaxtı ilə saat 20:00-da başlayan qarşılaşmanı baş hakim Harald Lexnerin rəhbərliyi ilə avstriyalı hakimlər briqadası idarə edib.

Oyunun ilk hissəsi Azərbaycan millisinin üstünlüyü ilə keçib. Futbolçularımız rəqibin qapısı qarşısında bir neçə təhlükəli vəziyyət yaratmağa müvəffəq olub. İkinci hissədə isə hər iki komanda təşəbbüslərin sayını azaldıb və oyunda hesabı aça bilməyib.

Azərbaycan millisi Avstriyadakı təlim-məşq toplantısı çərçivəsində keçirdiyi ilk yoldaşlıq görüşünü heç-heçlik nəticə ilə başa vurub.

Xatırladaq ki, mayın 23-dən iyunun 4-dək Avstriyada təlim-məşq toplanışında olan Azərbaycan milli komandası mayın 29-da Makedoniya, iyunun 3-də isə Kanada milli komandası ilə yoldaşlıq oyunları keçirəcək.

**AZƏRTAC-ın materialları əsasında**


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks);<br>Baş redaktorun müavini: (012) 510-64-27;<br>Məsul katib: (012) 510-71-98<br>Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | Əbülfət QASIMOV | Nərimanov Rayon Xəzinədarlığı<br>Kod: 200189<br>VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361<br>Sifariş № 371<br>Nüsxə 4720 |